UOT: 338

Əczaçılıqda iqtisadi münasibətlər sistemi və bu sahədə aparılan tədqiqatların müxtəlif istiqamətləri

N.M.Naibov, A.B. Hüseynova, L.A.Ağayeva
Azərbaycan Tibb Universiteti, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası, Bakı

Müəllifin elektron poçt ünvanı: nizami.naibov.55@mail.ru

Açar sözlər: əczaçılıq, iqtisadiyyat, iqtisadi münasibətlər, farmakoiqtisadiyyat
Ключевые слова: фармация, экономика, экономические отношения, фармакоэкономика
Key words: pharmacy, economics, economic relations, pharmacoeconomics

Əczaçılığın iqtisadi münasibətlər sisteminin inkişafına səbəb olan bir çox məsələlər tədqiqatçılar tərəfindən öyrənilmişdir. Biznesin idarə edilməsi müasir dövrdə müəssisələrin iqtisadiyyatını öyrənənlər üçün mühüm məsələlərdən biridir [9,29,28,38].

Müasir dövrdə əczaçılığın iqtisadiyyatının inkişaf etdirilməsində innovativ siyasətin bəzi aspektlərinin öyrənilməsinin də əhəmiyyəti vardır [3,17].

Son zamanlar iqtisadiyyatın inkişaf etdirilməsi ən vacib məsələlərdən biridir. Çünki əhalinin maddi rifahının yaxşılaşdırılması, xidmət sahələrinin genişləndirilməsi, sahibkarlığın inkişafı iqtisadi problemlərin həllindən çox asılıdır. İqtisadi problemlərin həlli isə bir çox şeydən asılıdır.

Belə ki, iqtisadiyyatın inkişafı, iqtisadi münasibətlərin yaradılması, onun düzgün istiqamətə yönləndirilməsindən ibarət ola bilər.

İqtisadçılar iqtisadiyyatın aparıcı qüvvəsi olan iqtisadi münasibətlərin mülkiyyət münasibətlərində (sosial-iqtisadi münasibətlərdən) və təşkilati iqtisadi münasibətlərdən ibarət olduğu qeyd edirlər. Eyni zamanda təşkilati iqtisadi münasibətləri də aşağıdakı hissələrə bölürlər;

- İstehsalda əməyin bölgüsü və kooperasiyası,
- təsərrüfat fəaliyyətinin təşkili,
- iqtisadiyyatın idarə edilməsi [8].

Bir çox müəlliflər əczaçılıq sahəsinin inkişafında sosial və iqtisadi münasibətlərin əhəmiyyətini qeyd edirlər. Belə ki, əczaçılıq sahəsinin perspektivli inkişafını sosial və iqtisadi münasibətlərin müsbət tendesiyalı istiqamətindən çox asılıdır. Ona görə də əczaçılıq sahəsinin iqtisadiyyatının inkişafında rolu olan əczaçılıq bazarının təhlili ən vacib məsələ kimi iqtisadçı tədqiqatçıların diqqət mərkəzindədiir. Əczaçılıq bazarında yaranan münasibətlər hər bir əczaçılıq xidməti obyektinin fəaliyyətinə yüksək təsir göstərməsi bu problemlərin öyrənilmsini zəruri edir [19,21,26,28].

Bundan əlavə, əczaçılıq bazarının böyük şəhər ərazilərində innovasiyon inkişafını öyrənir və bu sahədə islahatların aparılmasını təklif edirlər [37].

İqtisadiyyatın mühüm sahəsi olan iqtisadi münasibətlərin yaranması bir çox məsələlərə, problemlərə toxunur. Qeyd etmək lazımdır ki, iqtisadiyyatın inkişafı, eyni zamanda iqtisadi münasibətlərin yaranması müəssisənin gəlirli işləməsinə səbəb olur. Bu baxımdandır ki, tədqiqatçılar müəssisənin gəlirlərini və xərclərini daima hesablayırlar. Müəyyən üsullar axtarmaqla gəlirin artırılmasına, xərclərin isə azaldılmasına çalışırlar.

İqtisadi münasibətlərin düzgün qurulması gəlirin artmasına, itkilərin azalmasına səbəb ola bilər [27,36,39].

Əhaliyə güzəştli və pulsuz dərman xidməti göstərən zaman da iqtisadi münasibətlərin qurulması ən vacib şərtlərdən biridir. Çünki dərman vasitələrinin dövlət büdcəsinin hesabına ödənilməsi həyata keçirilir. Bir çox xarici ölkə mütəxəsisləri bu sahədə normativ hüquqi aktların müəyyən aspektlərinə toxunurlar. Bu istiqamətdə baş verən iqtisadi münasibətlər vasitəsi ilə problemlərin həll olunmasına çalışırlar.

Vətəndaşların güzəştli və pulsuz dərman vasitəsi ilə təminatının yaxşılaşdırılması yollarını axtarır və müəyyən təkliflər irəli sürürlər. Əlbəttə bu təkliflər həm dövlət büdcəsinə qənaət baxımından sərfəli olar və

müəyyən kateqoriya əhalinin müalicəsində gecikdirmələrin aradan qalxmasına şərait yaradardı. Əhali ilə təchizatçıların arasında yaranan iqtisadi münasibətlər dönüş ola bilərdi

Belə olan halda stasionarda müalicə olan xəstələrin də əczaçılıq təhlükəsizliyi qorunub saxlanardı. Stasionar xəstələrin əczaçılıq təhlükəsizliyi qiymətləndirilməsi də bir çox amillərin ortaya çıxmasının öyrənilməsinə imkan verir.

Əhalinin alıcılıq qabiliyyətinə görə aptek təşkilatları ilə iqtisadi münasibətlər yaratmağa qadir olurlar. Alıcılıq qabiliyyətinin səviyyəsinə görə iqtisadi münasibətlər bu səviyəyə uyğun yaradılır. Müəyyən edilmişdir ki, ödəməyə hazır olan alıcılar xidmətdən yararlana bilirlər. Bu tibbi texnologiyaların tədbiqi sahəsində əhalinin alıcılıq qabiliyyəti və hər hansı xidmətin eləcə də dərman vasitələrinin əvəzinin ödənilməsi öyrənilməlidir. Məlumdur ki, əczaçılıq xidmətinin səviyyəsinin qaldırılması həm də əhalinin alıcılıq qalibiyyətindən asılıdır. [35]

İqtisadi münasibətlərin yaranmasında alıcı təşkilatlar mal göndərən kanalların seçilməsini əsas götürürlər.

Tədqiqatçılar müəyyən kanalın DİGİTAL dərman vasitələrinin irəlilədilməsi sistemində rolunu qeyd etmişlər. Uyğun olaraq bu kanal vasitəsilə iqtisadi münasibət yaradan təşkilatlar təchizat işində müvəffəqiyyətlər qazanırlar. Bu kanal vasitəsilə dərman vasitələri az müddətdə səmərəli şəkildə pərakəndə satış şəbəkəsinə, eləcə də topdansatış təşkilatlarına çatdırılır. Sifarişlər tam və vaxtında yerinə yetirilir. Təklif olunur ki, bu kanalın təcrübəsindən digər kanallar da istifadə etsinlər.

Kanal iqtisadi münasibətlərin yaranmasında böyük rol oynayır. Dərman vasitələrinin əczaçılıq bazarında irəlilədilməsi üçün müasir üsullardan istifadə edilirş Kanal əczaçılıq bazarında informasiyanın yayılmasına da xidmət edir. Kanal, bir sözlə keyfiyyətli xidmətin həyata keçirilməsi üçün müəyyən tədbirlər hazırlayır və bu tədbirləri həyata keçirir. Əczaçılıq bazarı subyektlərinin bir çoxları haqqında məlumatlar toplayır. və iqtisadi münasibətlərin daha geniş miqyasda həyata keçirilməsinə nail olur [40].

Əczaçılıq sahəsində baş verən iqtisadi problemləri həll üçün müəyyən araşdırılır. Müalicə olunan xəstələrin dərman vasitələrini istifadə zamanı baş verən arzuolunmaz hadisələr nəticəsində iqtisadi itkiləri müəyyən etməyə çalışmışıq. Xəstələrin büdcələrinə dəyən siyasi iqtisadi münasibətlərin yaranmasına mənfi təsir göstərir. Belə hallar həm müalicənin düzgün aparılmaması və ya dərman vasitəsinin düzgün təyin olunmaması nəticəsində baş verə bilər. Göstərilir ki, dərman vasitələrinim arzuolunmaz reaksiyalarının qarşısının alınması və xəstələrin büdcəsi üçün, iqtisadi itkilərin olmaması üçün müəyyən qabaqlayıcı tədbirlər həyata keçirillidir. Bu, hərşeydən əvvəl müalicənim düzgün aparılması və dərman vasitələrinin düzgün təyin edilməsi həyata keçirilməlidir. [30]

Dərman vasitələrinin təchizində logistik əməliyyatların tədbiqinin iqtisadi münasibətlərin yaranmasında müəyyən rolu vardır. Dərman vasitələrinin istehsalçıdan istehlakçıya çatdırılması üçün həmin logistik əməliyyatların həyata keçirilməsi vacibdir. Bu əməliyyatların həyata keçirilməsində müxtəlif kanallardan istifadə edilir. İqtisadi münasibətlərin dərman vasitələrini irəlilədilməsi prosesində yaranmasə daha əlverişli yolların tədbiqinin axtarılmasına və onun tədbiqinə gətirib çıxarır. Logistikanın da bu sahədə tədbiq edilməsi dərman vasitələrinin istehlakçılara vaxtında və keyfiyyətli çatdırılmasına şərait yaradır [25].

Müasir dövrdə iqtisadiyyat sahəsinin tədqiqatçıları iqtisadi artəm ilə istehasal fəaliyyətinin inkişafı arasındakı əlaqənin yaranmasında iqtisadi münasibətlərin həyata keçirilməsini vacib hesab edirlər. Əlbəttə, istehsal fəaliyyətinin tərəqqiyə doğru inkişafı iqtisadi artıma səbəb ola bilər. İqtisadi artımın yaranması istehsal prosesinə də təsir göstərə bilir. Hər iki prosesin arasında əlaqə iqtisadi münasibətlərin inkişafına da təsir göstərə bilər. İqtisadi münasibətlər yaratmadan bu əlaqələr mümkünsüzdür. Hər bir prosesin inkişaf etdirilməsi üçün həmin proseslərdə münasibətlərin yaranması əsas məsələlərdən biridir.

Münasibətlərin yaranması bütün əlaqələrin yaranmasına da və həmin əlaqələrin inkişafına müsbət təsir göstərə bilər. İqtisadiyyatın iqtisadi artım və istehsal fəaliyyəti kateqoriyaları arasındakı əlaqənin inkişaf etdirilməsi iqtisadi münasibətlərin yaranması ilə əlaqəlidir [10].

Əczaçılıq bazarında dərman vasitələri haqqında informasiyanın xəstə ilə təşkilat arasında iqtisadi münasibətlərin yaranmasına mühüm təsir göstərə bilər. Dərman vasitələri, eləcə də digər əczaçılıq məhsulları haqqında dolğun və düzgün informasiya alan xəstə agent təşkilatına inamı daha da artır və həmin aptek təşkilatının daimi alıcısına çevrilir. Bu isə xəstə ilə aptek təşkilatı arasında iqtisadi münasibətlərin dayanıqlı olmasına gətirib çıxarır.

Alıcılara səmərəli informasiyanın verilməsi dərman vasitələrinin istifadə olunmasına şərait yaradıq. Alınası və geri qaytarılmayan hər bir əczaçılıq məhsulu aptek təşkilatının xeyrinə, onun gəlirlə işləməsinə səbəb olur.

Əczaçılıq bazarında dövriyyədə olan dərman vasitələri haqqında informasiyanın yayılması həkimlərin də xəstələrə əl çatan olan dərman vasitələrini təyin etməsi, xəstələrin dərman vasitələrini büdcələrinə görə istifadə

etməsi alıcılara iqtisadi cəhətdən əlverişli olur. Bu cəhətdən də iqtisadi münasibətlər inkişaf etməyə başlayır. Xəstələrin dərman vasitələrini səmərəli istifadə etmək üçün informasiyanın böyük rolunu araşdırmaq üçün müxtəlif metodlardan - sistemli yanaşmadan, müqasiyədən - istifadə edilmişdir [18,22].

Aptek təşkilatlarının marketinq təhlükəsizliyinin təmin edilməsi iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün istehlakçıların münasibətlərini öyrənilməsi həyata keçirilir. İstehlakçıların münasibətlərinin öyrənilməsi üçün ədaəbiyyat məlumatlarının kontent- analiz, sosioloji metodlardan istifadə edilmişdir [23].

İstehlakçıların münasibətlərini öyrənməklə əczaçılıq təşkilatlarının iş fəaliyyətinin keyfiyyətini tənzimləmək mümkündür. Münasibət hər iki tərəf arasında baş verirsə, onun istiqamətini mütləq şəkildə iqtisadi şərtlərə yönəldilməlidir.

İqtisadi münasibətlərə yönəldilən hər bir fəaliyyət növü təşkilatın xidmət müddətini uzadır və həmin təşkilatın əczaçılıq bazarında nüfuz qazanmasına şərait yaradır. Bazarın təhlilində istehlakçıların tələbatını, onların iş fəaliyyətinə münasibətlərini nəzərə almaq lazımdır. Münasibətlər nəzərə alındıqda yeni tədbirlərin həyata keçirilməsi proqramlaşdırılır və planlaşdırılır. Bu proqramların və planların tətbiqi aptek təşkilatlarının əczaçılıq xidmətinin keyfiyyətini yüksəldir [6,32].

Əczaçılıq sahəsində çalışan əczaçıların sosial adaptasiya üzərində tədqiqatlar aparılmışdır. Tədqiqatçılar əczaçılıq iqtisadiyyatının anlayışını vermişlər. Əczaçılıq iqtisadiyyatının dərman vasitələrinin istehsalı, bölgüsü, çatdırılması və mübadiləsi sahələrinin birliyindən ibarət olduğunu söyləmişlər.

İqtisadiyyatın və iqtisadi münasibətlərin inkişafı isə əczaçı işçilərin fəaliyyətindən asılıdır. Əczaçı kadrların iqtisadiyyatın və iqtisadi münasibətlərin aparıcı qüvvəsi olduğu məlumdur. İqtisadiyyatın resurslarından biri insan resurslarıdır. İnsan resursları isə əmək resurslarına aiddir. Əmək sərf olunmadan heç bir xidmətdən, məhsulun yaranmasından, istehsaldan söhbət gedə bilməz. Əməyi isə sərf edən kadrlardır - əczaçılardır. Müəyyən edilmişdir ki, əhalinin peşəkarcasına əczaçılıq məsləhətləri verməklə onların aptek təşkilatlarına cəlb etmək olar. Yeni alıcılarla iqtisadi münasibətlərin yaradılması isə aptek təşkilatının əczaçılıq bazarında özünəməxsus yer tutmasına və rəqabətə tab gətirməsinə, dayanıqlı fəaliyyət göstərməsinə səbəb olacaqdır. Əczaçıların sosial adaptasıyası, kollektivə alışması nə qədər tez baş verərsə əczaçılıq müəssisələri bir o qədər tez maksimal fəaliyyət gücünə malik olar. Bu isə əczaçılıq müəssisəsinin yüksək gəlirlə işləməsi deməkdir. Bu baxımdan aptek işçilərinin sosial adaptasiyası üzrə aparılan tədqiqatlar əhəmiyyətlidir [20,23].

Əczaçılıq iqtisadiyyatının təhlükəsizliyinin qorunmasında farmakoiqtisadiyyatın rolunun böyük olduğunu qeyd edirlər.

Xəstəxanaların dərman təminatı sisteminin təhlili zamanı farmakoiqtisadiyyatın prinsiplərindən istifadə edilmişdir. Metod kimi anketləşdirmə, müsahibə tətbiq edilmişdir [31].

Məlumdur ki, dərman vasitələri ilə təminatda iqtisadi təhlükəsizliyi gözləmək lazımdır. İqtisadi təhlükəsizlik bazarda daimi izlənilməlidir. İqtisadi təhlükəsizliyin ən mühim amillərindən biri iqtisadi münasibətlərin tənzimlənməsdir [8].

Mal göndərən təşkilatlarla, istehlakçılarla yaradılan iqtisadi münasibətlər, həm mal göndərən, həm istehlakçılar və həm də pərakəndə satış şəbəkəsinin iqtisadi təhlükəsizliyinin təminatçısıdır.

İqtisadiyyatda iqtisadi həyatın müəyyənedici amilləri vardır. Onlardan biri də mülkiyyətdir. Mülkiyyəti iqtisadi sistemlərin əsası kimi qiymətləndirirlər. Görkəmli elm xadimləri mülkiyyətin fəlsəfi, iqtisadi, hüquqi mahiyyətini və onun cəmiyyətin həyatındakı rolunu qeyd etmişlər [8,16].

Görkəmli alim Hegel demişdir ki, mülkiyyət əşya, predmetlərlə bağlı olsa da o əşya şey deyildir. O, insanlar arasında sosial-iqtisadi münasibətdir [8].

Mülkiyyət iqtisadi kateqoriyadır, iqtisadi münasibətdir. Mülkiyyət üzərində yaranan münasibətlərin hamısı iqtisadi münasibətlərlə bağlıdır. Mülkiyyət ictimai formada mənimsənilən istehsal vasitələri, istehsalın nəticəsi olan məhsullar, nemətlər və xidmətlərdir.

Məlumdur ki, istehsal vasitələri, məhsullar və xidmətlər üzərində yaranan münasibətlər mülkiyyət münasibətləri ilə yanaşı, həm də iqtisadi münasibətlərdir.

Mülkiyyəti başa düşmək üçün bəzən belə ifadələr meydana çıxa bilir:

- Müəssisə mənimdir
- Müəssisə sahibkarındır
- Müəssisə bizimdir
- Müəssisə dövlətindir və s. [8].

Qeyd olunur ki, mülkiyyət münasibətləri istehsal vasitələri və istehsal olunan məhsulların mənimsənilməsinə görə insanlar arasında yaranan və daimi təkrar olunam iqtisadi münasibətlər sistemidir [8,13,14].

Mülkiyyət münasibətlərin, o cümlədən də iqtisadi münasibətlərin aşağıdakıları xarakterizə etməsi göstərilir:

-Əmək qüvvələrinin istehsal vasitələri ilə birləşməsi

-Əmək, istehsal resursların üzərində sərəncam vermə və onlardan istifadə esilməsi

-İstehsal vasitələri, əmək resursları üzərində mülkiyyət münasinətləri iqtisadi menasibətlərin əsasını təşkil etməsini

-İstehsalın, xidmətin məqsədini və cəmiyyətin tiplərini müəyyən etməsini [5,8,11,14].

Bir çox müəlliflər iqtisadiyyatda mülkiyyət deyil, "mülkiyyət hüququ"nu əsas götürürlər. Yəni istehsal vasitələri, hazırlanan məhsullar, xidmətlər üzərində mülkiyyət hüququnun olmasını nəzərə almaq lazım olduğunu söylədilər [8,13].

Hüquq üzrə tədqiqatçılar 11 mülkiyyət hüququnun olduğunu göstərirlər :

1. Mülkiyyətə sahib olma hüququ
2. Mülkiyyətdən istifadə hüququ
3. Mülkiyyətin idarəedilməsi hüququ
4. Mülkiyyətdən gəlir götürmə hüququ
5. Mülkiyyətin suverenlik hüququ
6. Mülkiyyətin təhlükəsizliyi hüququ
7. Nemətin vərəsəliyə verilmə hüququ
8. Məhsullara sahib olmanın möhkəmliyi hüququ
9. Mülkiyyətdə ziyanlı istifadədən müdafiə hüququ
10. Mülkiyyətə cavabdehlik hüququ
11. Mülkiyyətdə pozulmuş hüquqların bərpası hüququ [8,13].

Azərbaycan Respublikasının Ali Konstitusiyasında mülkiyyətin 3 forması qeyd olunmuşdur :

1) Dövlət mülkiyyəti
2) Xüsusi mülkiyyət
3) Bələdiyyə mülkiyyəti [1,8].

İqtisadi münasibətlərin inkişafı ilə yanaşı mülkiyyət münasibətləri də müasir dövrdə inkişaf etməyə başlayır. Mülkiyyət münasibətlərinin inkişafının, hal-hazırki dövrdə müxtəlif meyllərinin olduğunu nəzərə almaq lazımdır :

- Mənimsəmənin fərdiləşməsi baş verir
- Xüsusi mülkiyyətçilərin sayı artır
- Son zamanlar sahibkarlara yaradılan münbit şərait sahibkarlıq fəaliyyətini artırır və mülkiyyətin sahibi olan şəxs mənfəəti və gəliri dayanıqlı əldə edir
- Mənimsəmənin səhmdarlar arasında səpələnməsi, yəni mülkiyyətin diversifikasiyası
- Mülkiyyətin müxtəlif formalarının gücləndirilməsi
- Mülkiyyətin özəlləşdirilməsi, mülkiyyətin üzərində nəzarətin azalması [8].

Əczaçılıq təşkilatlarının marketinq fəaliyyətinin auditinin xüsusiyyətlərinin öyrənilməsi də tədqiqatçıların diqqətini cəlb etmişdir. Marketinq fəaliyyəti əczaçılıq məhsullarının alınması, saxlanması, satışı, uçotunun aparılması proseslərindən ibarət olduğundan, burada ən çox iqtisadi problemlərlə bağlı məsələlərin həlli vacibdir.

Audit xidmətin xüsusiyyətlərindən biri də əczaçı kadrların təşkilatdakı fəaliyyəti ilə əlaqəlidir. Bu eyni zamanda kadrların marketinq üzrə fəaliyyətləri ilə bağlıdır.

Belə olan halda audit xidməti istər daxili audit, istərsə də xarici audit, aptek təşkilatında əczaçılıq məhsullarının alınması, saxlanması, istehlakçılara çatdırılması, uçotunun aparılması, kadrların əmək bölgüsü, prinsipləri və qaydalarına riayət olunmasına, beləliklə də prosealər zamanı yaranan iqtisadi münasibətlərə nəzarəti həyata keçirir [2,23].

Əczaçılıq sahəsində iqtisadi münasibətlərin yaranmasında əczaçı kadrların böyük rolu vardır. Əczaçı kadrların isə təhlükəsizliyinin təmin edilməsində farmakoiqtisadiyyat müəyyən imkanlar yaradır [24].

Farmakoiqtisadiyyat səhiyyə iqtisadiyyatının tərkib hissəsidir. O, dərman vasitələrinin düzgün istifadə olunmasınınn, müaiicənin klinik və iqtisadi əlverişli olmasının öyrənilməsinə yönəlmişdir [7, 23,24,31].

Eyni zamanda əczaçı kadrların iş fəaliyyətinin keyfiyyətli olması, peşəkar əməklərinin sərf edilməsi aptek təşkilatlarının xərclərinin azalmasına səbəb olur. Xərclərin azalması isə aptek təşkilatının işçilərinin ixtisar olmamasına, onların maaşlarının və əlavə əmək haqqlarının artımına şərait yaradır. Beləliklə, iqtisadi durumu dayanıqlı olan, iqtisadi münasibətləri müsbət iqtiqamətdə inkişaf etdirən təşkilatın və onların maddi təhlükəsizliyi təmin olmuş olur [7,16,24].

Əczaçılıq sənayesi, eləcə də əczaçılığın digər sahələri iqtisadi cəhətdən dayanıqlı olmadıqda iflasa uğrayırlar. İqtisadi cəhətdən dayanıqlı olmağın səbəblərindən biri iqtisadi münsabətlərin düzgün qurulmasından ibarətdir. İqtisadi münsabətlərin düzgün qurulması isə mülkiyyət münasibətlərinin, əmək bölgüsünün, sövdələşmələrin, müqavilələrin, istehsal və insan resurslarından qənaətli istifadənin, əmək vasitələrinin səmərəli işlədilməsinin düzgün təşkilindən ibarətdir. Bütün fəaliyyət proseslərinin modelləşdirilməsi, daimi nəzarətdə saxlanılması və monitorinqinin aparılması yaranan müflisməşmənin əvvəlcədən müşahidə edilməsinə imkan verə bilər və müflisləşmə təhlükəsinin qarşısını almaq üçün tədbirlər proqramı hazırlanar.

Beləliklə, təşkilatda, müəssisədə, şirkətdə baş verən proseslərin modelləşdirilməsi, monitorinqi müflisləşmənin qiymətləndirilməsini mümkün edir [41].

Məlumdur ki, istehsalçı ilə mal göndərən, eləcə də mal göndərən təşkilatla pərakəndə satış şəbəkəsi arasında əlaqələrin rəsmiləşdirilməsi müqavilələrin bağlanması nəticəsində baş verir. Müqavilələrin bağlanması isə mal və pul mübadiləsinin və barter üsullarının şərtlərini müəyyən edir.

Mal üzərində onun istehsalı, mal göndərənlərə çatdırılması zamanı iqtisadi münasibətlərin yaranması labüddür.

Eyni zamanda malı aldıqdan sonra və ya sifariş zamanı (bu müqavilədə əks olunmalıdır) müqavilənin şərtlərinə əsasən pulun ödənilməsi üzərində də müəyyən iqtisadi münasibətlər yaranır.

Müqavilə bağlanan zaman tərəflərin müqavilənin şərtlərinə əməl etmələri üzrə onların hüquqları, vəzifələri və məsuliyyətləri qeyd olunur. Bu isə tərəflərin təşkilati və iqtisadi münasibətlərini yaranmasına şərait yaradır.

Müqavilənin şərtlərindən biri malın istehsalçı tərəfindən sifarişə əsasən malın miqdarı və vaxt cəhətdən düzgün göndərilmə yerinə yetirilməlidir. Mal keyfiyyət sertifikatına malik olmalıdır.

Eyni zamanda mal göndərən də pərakəndə satış şəbəkəsinə malı vaxtında, lazım olan miqdarda, keyfiyyətli çatdırmalıdır. Qeyd olunur ki, malın daşınmasında müəyyən şərtlərə əməl edən tərəf məsuliyyət daşıyır.

Pərakəndə satış şəbəkələri isə malın qəbul edilməsini təşkil edir. Bu zaman pərakəndə satış şəbəkələri, o cümlədən aptek təşkilatları əczaçılıq məhsullarının göndərilən miqdarına, keyfiyyətinə nəzər yetirməlidirlər. Dərman vasitələrinin yararlılıq müddətləri olduğuna görə onların qəbulu xüsusi şərtlərlə həyata keçirilir.

Müqavilə müəyyən müddətə bağlanır. Əgər müqavilənin şərtlərinə tərəflər etiraz etmirlərsə, onda müqavilənin vaxtı yeni müddətə uzadıla bilər [4].

Farmakoiqtisadiyyat sahəsində innovasiyon ısıahatların aparılması iqtisadi münasibətlərin yaranmasında böyük rol oynayır. Belə ki, nisbi dəyərliliyi və itki effektivliyinin təhlili iqtisadi münasibətlərin yaranmasına müəyyən təkan verir. Təşkilatlarda həyata keçirilən bütün proseslərin nisbi dəyərliliyini və effektivliyin itkisinin müəyyən edilməsi iqtisadiyyatın inkişafına öz təsirini göstərə bilər. Hər bir görülən işin effektivliyinin innovasiyon metodlarla effektivliyinin itkisinin öyrənilməsi aparılan tədqiqatların bu sahədə məqsədi olmuşdur. Effektivlik itkisinin əmsalının tapılması hər bir vəzifənin yerinə yetirilməsində mühüm rol oynayır. Ola bilər ki, bu vəzifənin yerinə yetirilməsinə daha çox xərc çəkilsin, lakin onun əhəmiyyətinin böyük olduğunu nəzərə alaraq bu xərci əmsalının böyük olmasının təhlili heç bir iqtisadi ziyana aparmır. İqtisadi cəhətdən əhəmiyyətli olan texnologiyalara dəyər vermək bu təhlillərin aparılması iqtisadi münasibətlərin müsbət istiqamətə inkişaf etməsinə şərait yarada bilər. Belə texnologiyaların alınmasına və həyata keçirilməsinə bütün istehsalçı, o cümədən də ticarəti həyata keçirən təşkilatlar qərar verə bilirlər. Onlar bu texnologiyaların ödənilməsinə imkan verən bütün tədbirləri proqramlaşdırır və həyata keçirilməsinə çalışırlar. Çünki, effektli texnologiyaların sərf olunan xərci yüksək gəlir əldə etməyə imkan verəcəkdir. Belə olan halda təşkilat əczaçılıq bazarında nüfuz qazanar, iqtisadiyyatı dayanıqlı olar. Əczaçılıq müəssisələri fəaliyyətini yüksək keyfiyyətli, effektli texnologiyalarla yerinə yetirilməsinə qərar verdikdə əhaliyə və müalicə profilaktika müəssisələrinə əczaçılıq xidmətini təkmilləşmiş şəkildə həyata keçirə bilir. Əczaçılıq bazarında rəqabətə tab gətirməsi, nüfuz qazanması, iqtisadi cəhətdən dayanıqlı olmasına yüksək texnologiyaların istifadəsi səbəb olur. Eyni ilə əczaçılıq müəssisələrində farmakoiqtisadiyyatın innovasiyon metodları istifadə etməsi həyata keçirdiyi vəzifələrin və texnologiyaların farmakoiqtisadi təhlilini aparması həmin təşkilatın yüksək naliyyətlər əldə etməsinə səbəb olar [34].

Tədqiqatçılar tərəfindən farmakoiqtisadi modellərə böyük diqqət yetirilir. Qeyd olunmuşdur ki, farmakoiqtisadiyyatın modellərinin 26 atributunun təsviri verilmişdir. Farmakoiqtisadi modellər klini-iqtisadi təhlillərin aparılması əsasında yaradılmışdır. Bu tədqiqatlarla yanaşı atributların xassələri eyniləşdirilmiş, bunun nəticəsində təsnifləşdirilmiş və sistemləşdirilmişdir. Farmakoiqtisadi modellərin yaradılması təşkilatların iqtisadi münasibətlərini təhlil edilməsinə və inkişaf etdirilməsinə imkan yaradır. İqtisadi modellər

iqtisadi proseslərin daha effektiv yerinə yetirilməsinə imkan verir. Farmakoiqtisadi modellərin nəticəsində görüləcək tədbirlər, vəzifələrin proqramlaşdırılması, planlaşdırılması, proqnozlaşdırılması həyata keçirilir[40].

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası, 1995-ci il
2. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının qanunu, Bakı, 1994.
3. Atakişizadə S.A, Əbilova V.A, Əliyeva A.H, Vəliyeva M.N Müasir əczaçılığın innovativ siyasətinin bəzi aspektləri // Azərbaycan təbabətinin müasir naliyyətləri, 2015, N 1, s. 170-180
4. Əczaçılıq mallarının mübadiləsi üzrə müqavilələrin bağlanması və tərtib edilmə qaydaları (tədris-metodiki vəsait) / Tərtib edənlər: prof. Vəliyeva M.N., Mehralıyeva S.C. Bakı, 2003, 42 s.
5. Əhalinin sağlamlığının qorunması haqqında // Azərbaycan Respublikasının qanunu, Bakı, 25 iyun 1997-ci il.
6. Əliyev Ə.Q. İnformasiya və biliklər iqtisadiyyatı sektorlarının formalaşması problemləri üzrə beynəlxalq elmi nəşrlərin analitik təhlili // AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası, 2018, N 6, 5-21.
7. Hüseynova A.B., Naibov N.M. Aptek təşkilatlarında əczaçı kadrlarının çatışmazlığına təsir edən amillərin öyrənilməsi // Azərbaycan təbabətinin müasir nailiyyətləri, 2019, N2, s. 128-132.
8. İbadov S.A. İqtisadiyyat (iqtisadi nəzəriyyə) Dərslik. Bakı, 2009, 415 s.
9. İmanov Ə.Ş Biznes və menecment dərs vəsaiti. Bakı, 2011, 364 s.
10. Kərimov E.N. Müasir şəraitdə iqtisadi artım ilə istehsal fəaliyyətinin inkişafı arasındakı əlaqə // AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası, 2018, N 6, 93-100.
11. Mehdizadə N.S., Naibov N.M. Aptek təşkilatlarında insan resurslarının idarə edilməsinin təşkilinin bəzi istiqamətləri və onların təhlili metodları // Azərbaycan təbabətinin müasir nailiyyətləri, 2021, N1, s. 119-120
12. Muxtarova.P.E, Bədəlov.Q.A, Hüseynov.Z.M. Audit fənni üzrə proqram. Gəncə, 2015, 155s.
13. "Mülkiyyət haqqında" Azərbaycan Respublikasının qanunu, Bakı, 9 noyabr 1991-ci il.
14. Naibov N.M., Mehdizadə N.S. Aptek təşkilatlarında əczaçı kadrların modelləşdirilməsinin istiqamətlərinin müəyyənləşdirilməsi // Azərbaycan təbabətinin müasir nailiyyətləri, 2021, N1, s.133-135.
15. Rzayev Q.R "Mühasibat uçotu və audit (dərs vəsaiti)", Bakı, 2002-ci il, 330 s.
16. Vəliyeva M.N., Cabbarova Ş.A. Əczaçılığın idarəolunması və iqtisadiyyatı. Bakı: "Şərq-Qərb" nəşriyyat evi, 2013, 736 s.
17. Атакишизаде С.А. Стратегия фармацевтицеской этики в инновационной научно-практической деятельности фармацевтов // Биомедицина, 2017, N2, 90-93 с.
18. Балыкина Ю.Е, Вилюм И.А, Колбин А.С. и др. Фармакоэкономический анализ применения телаванцина в терапии пациентов с осложнениями инфекциями кожу и мягких тканей в условиях здравоохранения РФ // Фармакоэкономика:теория и практика, 2016, N 2, с. 75-81.
19. Бородин А.И. Перспективы развития фармацевтической отрасли // Экономика, 2012, N 5, с. 31-35.
20. Будякова Е.Ю. Воспроизводство продуктивных сил в регионе // AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası, 2018, N 6, 22-34.
21. Воробьев М.А, Безмеллькицына Л.Ю Организация лекарственного обеспечения в Российской Федерации // Проблемы стандартизации в здравоохранения, 2013, N 3-4, с 3-8.
22. Гудилина Н.А., Ростова Н.Б., Фотеева А.В.Информация для пациента в целях рационального использования лекарственных препаратов // Фармакоэкономика: теория и практика, 2019, N1, с.31-32
23. Клищенко М.Ю., Кузнецов Д.А. Исследование социальной адаптации фармацевтических работников // Фармакоэкономика: теория и практика, 2019, N1, с. 44
24. Клищенко М.Ю., Кузнецов Д.А. Роль фармакоэкономических компетенчий в обеспечении кадровой безопасности // Фармакоэкономика: теория и практика, 2018, N 1, с.52
25. Ковач А.С. Применение логистики в лекарственном обеспечении // Фармация, 2019, N1, с.42-47
26. Козыкин С.М. Анализ фармацевтического ринка на основе системого подхода // Экономические науки, 2011, N 10, с. 97-99.
27. Комаров И.А Оценка технологий здравоохранения при лечении биполярных аффективных расстроств в условиях российского здравоохранения с позиции их влияния на бюджет // Фармакоэкономика: теория и практика, 2015, N1, с.75

28. Костенко.Н.Л, Мирошниценко.Ю.В, Щерба.М.П Применение сетей петри при моделировании фармакоэкономических исследованию // Фармакоэкономика: теория и практика, 2018, N1, с. 61

29. Крылов В.А. Практическое применение методологии непрямых сравнений // Фармакоэкономика: теория и практика, 2019, N3, с.11-16

30. Крысанова В.С, Крысанов И.С, Гуревич К.Г. Экономичесие затраты на коррекцию нежелательных лекарственных реакций у пациентов терапевтического профиля // Фармация, 2019, N 4, с. 47-53

31. Кузнецов Д.А. Роль фармакоэкономики в обеспечении фармацевтицеской экономической безопасности // Фармакоэкономика: теория и практика, 2019, N1, с. 47

32. Кузнецов Д.А., Семенова С.В. Изучение отношения потребителей к программе лояльности с позиции маркетинговой безопасности фармацевтицеских организаций // Фармакоэкономика: теория и практика, 2019, N1, с.68.

33. Кузнецов.Д.А, Семёнова.С.В Особенности аудита маркетинга фармацевтицеской организации // Фармакоэкономика: теория и практика, 2018, N1, с.73-74

34. Куликов А.Ю., Серник В.Г., Ягудина Р.И. Фармакоэкономика инноваций или инновации в фармакоэкономике: анализ «относительной ценности» вместо анализа «затраты-эффективность»? // Фармакоэкономика: теория и практика, 2019, N2, с. 5-8

35. Куликов А.Ю., Угрехидзе Д.Т., Ягудина Р.И. Определение порога «готовнойь платить» при одобрение медицинских технологийв условиях российского здравоохранения, рассчитанного на основе паритета покупательной способности // Фармакоэкономика:теория и практика, 2015, N3, с.5-9

36. Панфилова А.Л Анализ динамики показателя порога готовности платить в системе здравоохранения и фармацевтического обеспечения в Украние // Фармакоэкономика: теория и практика, 2015, N1, стр.8

37. Руцик Ю.О Инновационное развитие фармацевтического рынка в мегаполисе (Авторетерат. диес. каид. экономических наук - Санкт Петербург, 2013, 26 с.

38. Серпик В.Г., Ягудина Р.И. Идентификация атрибутивных свойств фармакоэкономичесхих моделей // Фармакоэкономика: теория и практика, 2019, N4, с.6-9

39. Серпик В.Г, Ягудина Р.И. Методология анализа затрат // Фармакоэкономика: теория и практика 2016, N 2, с.5-9

40. Чупандина Е.Е., Глембоцкая Г.Т, Горячев А.В. и др. DIGITAL - каналы в системе продвинутых лекарственных препаратов на российском фармацевтическом рынке // Фармация, 2020, N 4, с.18-25

41. Стелмак В.С. Оценка банкротство предприятия фармацевтической промышленный : моделирование и мониторинг // Фармация, 2018, №3, с.35-43

Резюме

Система экономических отношений в фармации и различные направления исследований, проводимых в этой области

Н.М. Наибов, А.Б. Гусейнова, Л.А. Агаева

Статья посвящена изучению организации системы экономических отношений в фармацевтике и различным направлениям исследований, проводимых в этой области. Экономисты отмечают, что экономические отношения, являющиеся движущей силой экономики, состоят из отношений собственности (из социально-экономических отношений) и организационно-экономических отношений.

Summary

The system of economic relations in pharmacy and various directions of research conducted in this field

N.M.Naibov, A.B. Huseynova, L.A.Agayeva

The article is devoted to the organization of the system of economic relations in pharmacy and the study of various directions of research conducted in this field. Economists note that economic relations, which are the driving force of the economy, consist of property relations (socio-economic relations) and organizational economic relations.

Daxil olub: 22.01.2025